

*Gün gələcək Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 İYUL 2024-cü il | CÜMƏ AXŞAMI | № 149 (7907) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ



# Sosial-iqtisadi inkişafın Azərbaycan modeli

***Yeni yaranan sənaye, aqrar və xidmət müəssisələri, göydələnlər, nəhəng körpülər, müasir yollar, elm, təhsil, sağlamlıq, o cümlədən idman təsisatları ölkənin iqtisadi imkanlarının təzahürü olaraq gələcəyin uzunmüddətli inkişafına yönəldilir. Bu gün Azərbaycan getdikcə qüdrətlənir və daha parlaq gələcəyin bünövrəsi qoyulur. Milli dəyərlər əsasında qurulan dövlət siyasəti, yeniliklər və islahatlarla zəngin dövlət idarəetməsi insanlara xidmət edir, eyni zamanda sosialyönümlüdür.***

Xüsusilə dövlət quruculuğu, azərbaycançılıq ideyasına söykənən siyasətimiz XXI əsrdə innovativ modernləşmə mərhələsinə keçidi, cəmiyyətin zamanla uyğunlaşan yeni duruma transformasiyasını sürətləndirir və bununla qarşıya yeni hədəflər, istiqamətlər və prioritetlər qoyur. Bir sözlə, ötən illər ərzində dinamik sosial-iqtisadi inkişaf demokratik və müasir dövlət quruculuğunda çox vacib mərhələyə qədəm qoymuş və Azərbaycanın gələcəyi üçün uğurlu zəmin yaratmışdır. Heç şübhəsiz, bunun əsasında müasir Azərbaycanın, müstəqil dövlətimizin memarı və qurucusu - ulu öndər Heydər Əliyevin fədakar xidmətləri dayanır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ulu öndərin qurduğu uğurlu iqtisadi təməl üzərində qüdrətli Azərbaycan inşa edilir. Belə ki, son 20 ildə ÜDM 7.3 milyard dollardan 78.7 milyard dollara yüksəlmiş, dövlət büdcəsinin xərcləri 1.2 milyard manatdan 36.6 milyard manata çatmışdır. Bununla yanaşı, strateji valyuta ehtiyatları 1.4 milyard dollardan 66.1 milyard dollara qədər artıb. İqtisadiyyatın güclənməsinin sosial mühitə də müsbət təsiri müşahidə olunur. Belə ki, orta aylıq əməkhaqqı 77.4 manatdan 839.4 manata yüksəlmiş, yoxsulluq səviyyəsi 44.7 faizdən 5.5 faizə enmişdir.

Yardım alan ölkədən donor dövlətə çevrilməsi Azərbaycanın iqtisadi qüdrətini beynəlxalq müstəvidə aydın göstərir. Uğurlu iqtisadi gediş gələcəkdə də Azərbaycanın inkişafının sürətli və dinamik xarakter daşıyacağını, onun daha böyük nailiyyətlərə imza atmasını da şərtləndirir. Bu gün dünyanın nüfuzlu xarici təşkilatları Azərbaycanda dayanıqlı iqtisadi inkişaf və əlverişli investisiya mühitinin olduğunu etiraf edirlər. Bu fakt həmçinin Azərbaycana xarici investisiya cəlbini də artırır. Artıq ölkəmiz neft sektorundan əldə etdiyi kapitalı uzun illərdir ki, qeyri-neft sektoruna yönəldir. Bu proses qlobal tələblərin yerinə yetirilməsi çərçivəsində önəmli addım hesab edilir. Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir.

Davamlı inkişafa yönələn makroiqtisadi siyasətin əsasını iqtisadi artımla yanaşı, sosial maraqların təmin edilməsi təşkil edir. Əhalinin sosial müdafiəsinə və təminatına yönəldilən xərclər dəfələrlə artırılmışdır. Dövlət başçısının dediyi kimi, mühüm Dövlət proqramlarının və genişmiqyaslı layihələrin həyata keçirilməsi nəticəsində şəhər, kənd və qəsəbələrin siması dəyişmiş və müasirləşmiş, əhalinin rifahı yüksəlmişdir. Regional inkişaf proqramlarını reallaşdırmaqla biz paytaxtla bölgələr arasında inkişaf fərqini aradan qaldırmağa müvəffəq olduq. Azərbaycanda sosial sahədə ciddi irəliləyiş əldə etmişik. Bununla yanaşı, müasir tələblərə uyğun 2500-dən artıq məktəb, yüzlərlə səhiyyə müəssisəsi, idman kompleksləri və çoxsaylı sosial təyinatlı digər obyektlər tikilib istifadəyə verilmişdir. Ölkədə əməkhaqları, sosial müavinətlər mütəmadi olaraq artır və artmaqda davam edəcək.

Azərbaycanın dünyanın 166 ölkəsi arasında "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi" üzrə 54-cü pillədə qərarlaşması Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində reallaşdırılan iqtisadi və sosial islahatların nəticəsidir. Danılmaz faktdır ki, möhkəm təməllər üzərində qurulan iqtisadi inkişaf Azərbaycan üçün prioritetdir. Aparılan islahatlar növbəti illərdə də ölkəmizin daha da inkişafı üçün əlverişli zəmin yaradır. Sözügedən hesabatda əksini tapan məqamların əsasında dayanan amillərdən biri də Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatlardır.

Xüsusi qeyd edilməlidir ki, cari ilin yanvar-iyun aylarında ölkədə 59520,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz çox ümumi daxili məhsul istehsal olunub. Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,6 faiz, qeyri-neft-qaz sektorunda isə 6,9 faiz artıb. ÜDM istehsalının 38,5 faizi sənaye, 9,7 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 5,8 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai-iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 19,5 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,6 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 5840,7 manata bərabər olub.

**(davamı 2-ci səhifədə)**

# Sosial-iqtisadi inkişafın
# Azərbaycan modeli

(əvvəli 1-ci səhifədə)

Bu gün işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış prosesi davam edir. Çox ağrı-acılar çəkmiş, yurd yerlərindən didərgin düşmüş soydaşlarımız öz isti ocaqlarına qayıdırlar. Lakin 30 ilə yaxın bir dövr ərzində qüdrətli Azərbaycan dövləti məcburi köçkün və qaçqınların hərtərəfli təminatına xüsusi diqqət ayırıb. Bu illər ərzində məcburi köçkünlərin yaşadıqları bütün çadır şəhərcikləri ləğv olunub, 77 müasir qəsəbə salınaraq 100 minlərlə məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 2012-ci ildə 20 min köçkün yeni, müasir evlərə köçürülüb.




Artıq keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışı uğurla aparılır. Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydançasına çevrilib. İşğal dövründə düşmən tərəfindən tamamilə dağıdılmış, talan edilmiş şəhərlərimizi, kəndlərimizi yenidən qururuq. 2023-cü ildə 5 minə yaxın keçmiş məcburi köçkün öz doğma torpaqlarına qayıdıb. 2024-cü ildə də proses sürətlə davam edir. İşğaldan azad edilmiş və keçmiş təmas xəttində irimiqyaslı minatəmizləmə işləri ilə yanaşı, əsas infrastruktur layihələri də sürətlə gerçəkləşdirilir. Minatəmizləmə işlərində diqqət azad olunan ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilmişdir.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda yeni yollar çəkilir, ərazilərin fasiləsiz elektrik enerjisi ilə təminatı həyata keçirilir, yaşayış binalarının təməlləri qoyulur. Böyük Qayıdışın təmin edilməsi üçün ərazilərin minalardan təmizlənməsi ilə paralel, ilkin mərhələdə baza və sosial infrastrukturun qurulması prioritet məsələdir və bu istiqamətdə işlər sürətlə davam edir. Quruculuq işləri içərisində Tərtər rayonunun Suqovuşan qəsəbə tam orta məktəbində bərpa işləri yekunlaşmış, Talış kənd tam orta məktəbi və uşaq bağçası isə artıq istifadəyə verilmişdir. Həmçinin Ağdam və Füzuli şəhərində isə uşaq bağçaları üzrə layihələndirmə işləri aparılır. Bundan əlavə, erməni vandalizminin qurbanı olan tarixi və dini abidələrimizin, məscidlərimizin bərpası istiqamətində də işlər uğurla həyata keçirilir. Onu da qeyd edək ki, cari ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən xərcləmələr 1 milyard 221 milyon manat təşkil edib. Bu il işğaldan azad edilmiş ərazilərə büdcədə 3 milyard 825 milyon manat vəsait nəzərdə tutulub. Yanvar-mart aylarında bu məbləğin 31,9 faizi xərclənib.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin timsalında dünya şəhərsalma təcrübəsinin yeni Azərbaycan modeli yaradılır. Bütün bunlar dünya ictimaiyyəti tərəfindən müsbət amil kimi dəyərləndirilir. Qarabağ və Şərqi Zəngəzurun bərpası, həmin ərazilərdə məskunlaşmanın təmin edilməsi Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifə kimi səciyyələndirilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 2026-cı ilin sonunadək 140 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarında məskunlaşdırılması nəzərdə tutulur.

Onu da qeyd edək ki, SOCAR-ın emal kompleksində istehsal olunan məhsulları Avro-5 standartlarına çatdırmaq məqsədilə Heydər Əliyev adına neft emalı zavodunda (NEZ) aparılan yenidənqurma və modernizasiya işlərinin ilkin mərhələsi üzrə işlər tamamlanıb. Layihənin dizel və benzin istehsalı qurğularının inşası üzrə işlər yekunlaşıb, bir sıra ümumzavod təsərrüfat, texnoloji qurğular istismara verilib. Görülmüş işlər nəticəsində NEZ-də istehsal olunan Aİ-92 və Aİ-95 markalı avtomobil benzinləri artıq Avro-5 standartlarına çatdırılıb.

Bununla da artıq 2014-cü ildən hazırkı vaxtadək beynəlxalq qiymətlərlə idxal olunan Aİ-95 markalı avtomobil benzini daxili istehsal hesabına təmin ediləcək. Avro-5 keyfiyyət göstəricilərinə uyğun daxili istehsal olunan Aİ-95 markalı avtomobil benzininin bir litrinin qiyməti 15 iyul 2024-cü il tarixindən bazarın konyunkturuna uyğun olaraq 40 qəpik azalaraq 1,60 manat olub. Heç şübhəsiz, görülən bütün işlər kimi bu da əhalinin sosial rifahının artırılmasına xidmət edir.

**Nurlan ABDALOV,**
**"Respublika".**








